

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

25 dekabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 50 (3762)


# Müzəffər lider

**Hər bir xalqın tarixində taleyüklü qərarların verildiyi, gələcək inkişaf yolunu müəyyənləşdirən dönüş nöqtələri olur.**

Azərbaycan üçün belə mühüm mərhələlərdən biri 2003-cü il idi. Həmin il xalqımız prezident seçkilərində ümummilli lider Heydər Əliyevin siyasi kursuna sadiqliyini nümayiş etdirərək bu yolu inamla davam etdirəcək liderə – İlham Əliyevə etimad göstərdi.

Bu gün Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyinin qarantı, inkişaf strategiyasının memarı və beynəlxalq arenada söz sahibi olan nüfuzlu dövlət başçısı kimi tanınır. Onun rəhbərliyi ilə ölkəmiz son 22 ildə dayanıqlı iqtisadi inkişaf yolunu keçib, regional və qlobal miqyasda etibarlı tərəfdaşa çevrilib. Məhz bu illər ərzində həyata keçirilən islahatlar Azərbaycanın iqtisadi potensialını gücləndirib, enerji və nəqliyyat sahələrində mühüm beynəlxalq layihələrin reallaşmasına imkan yaradıb.

Azərbaycanın iqtisadi yüksəlişinin təməli 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə qoyulub. Bu strategiya Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilərək Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum boru kəmərləri, TANAP və TAP kimi qlobal əhəmiyyətli layihələrlə möhkəmləndirilib. Eyni zamanda, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin formalaşdırılması ölkəmizi mühüm logistik mərkəzə çevirib. Azərbaycanın kosmik ölkələr sırasına qoşulması da bu inkişafın mühüm göstəricilərindəndir.



### İlham Əliyev regionda sülhün və təhlükəsizliyin təminatçısıdır

Prezident İlham Əliyevin xarici siyasəti beynəlxalq hüququn aliliyinə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanır. Bu prinsipial mövqe Azərbaycanın beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, Qoşulmama Hərəkatına uğurlu sədrliyi və COP29 kimi mötəbər beynəlxalq tədbirə ev sahibliyi etməsi Prezident İlham Əliyevin liderliyinin qlobal səviyyədə qəbul edildiyini göstərir.

> *"Prezident İlham Əliyevin liderliyi qlobal səviyyədə qəbul edilir"*

Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri 44 günlük Vətən müharibəsi ilə yazıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə ölkəmiz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bu Qələbə yalnız hərbi gücün deyil, illərlə aparılan məqsədyönlü diplomatiyanın, informasiya mübarizəsinin və milli birliyin nəticəsi idi. Prezidentin müharibə dövründə beynəlxalq mediaya verdiyi müsahibələr Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında həlledici rol oynadı.

Qələbədən sonra regionda yeni reallıqlar formalaşıb. Postmüharibə dövrünün gündəliyini məhz Azərbaycan diktə edir. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, infrastruktur yaradılır, yaşayış kompleksləri inşa olunur.

İlham Əliyev müharibə dövründə Müzəffər Ali Baş Komandan, müharibədən sonra quruculuq lider kimi Azərbaycanı yeni zirvələrə daşıyır. Dövlət başçısının doğum günü isə təkcə şəxsi həyat mərhələsi deyil, həm də dövlət və xalq qarşısında görülən işlərin hesabatı kimi dəyərləndirilir. Son 22 ilin nəticələri göstərir ki, bu yol uğur yoludur.

# "Böyük Qayıdış" uğurla icra olunur

## Prezident İlham Əliyev Qarabağda görülən işlərlə tanış olub

"Böyük Qayıdış" proqramı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi, Xocalı və Ağdamda aparılan bərpa, quruculuq və iqtisadi inkişaf işləri ilə tanış olub.

Prezident Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub. Qəsəbədə mövcud 1037 fərdi evdən bir hissəsi artıq təmir edilib, mərhələli şəkildə yüzlərlə evin bərpası nəzərdə tutulur. İlk mərhələdə 30 ailə öz doğma yurdlarına qayıdıb. Ərazidə su, qaz, elektrik, rabitə xətləri yenilənib, yollar asfaltlanıb, küçə işıqlandırılması təmin olunub. Körpələr evi-uşaq bağçası və tam orta məktəb əsaslı təmir edilib.

Prezident Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışında iştirak edib. 624 şagird yerlik məktəb müasir tədris avadanlıqları ilə təmin olunub.

Xankəndidə Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni binasının açılışı olub. Fakültədə 7 ixtisas üzrə 500-dən çox tələbə təhsil alır. Müasir dizaynlı bina auditoriyalar, laboratoriyalar, kitabxana və inzibati otaqlarla təchiz edilib. Prezident, eyni zamanda, Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub.

Daha sonra Prezident "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Xankəndi-1" yarımstansiyasının açılışında iştirak edib. Yeni yarımstansiya Xankəndi və ətraf ərazilərin dayanıqlı elektrik enerjisi ilə təminatına xidmət edir. Qarabağ və Şərqi Zəngəzurda 1000 kilometrədək yüksəkgərginlikli xətlər çəkilib, dairəvi elektrik təchizatı sistemi yaradılıb və "yaşıl enerji" layihələri icra olunur.

Prezident Kərkicahan qəsəbəsində məskunlaşan sakinlərlə də görüşüb.

Xocalı rayonunun Ballıca kəndində "Accurate Az" MMC-nin ofis mebelləri istehsalı müəssisəsinin açılışı olub. Müəssisədə müasir xarici texnologiyalar tətbiq olunur, məhsulların böyük hissəsi ixrac ediləcək. Yüzlərlə iş yerinin yaradılması da planlaşdırılır.

Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin mebel istehsalı müəssisəsinin təməli qoyulub, "Construction" MMC-nin metal elektrik dirəkləri zavodu istifadəyə verilib. Parkda ümumilikdə yüz milyonlarla manatlıq investisiya yatırılıb, minə yaxın daimi iş yeri yaradılıb.

Səfər çərçivəsində Prezident Ağdam şəhərində "Hilton Garden Inn Agdam" otelinin açılışında da iştirak edib. Müasir otel turizmin inkişafına və məşğulluğun artmasına töhfə verəcək.

## Xüsusi qayğının növbəti təzahürü

### Aztəminatlılara birdəfəlik maddi yardım veriləcək

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə "Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən 2025-ci il dekabrın 30-u tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 200 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, Prezident İlham Əliyevin imzaladığı Sərəncam 76 min aztəminatlı ailəni əhatə edəcək.

## Birinci vitse-prezidentdən təbrik

### Dövlət başçısının doğum günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü münasibətilə sosial media hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Ləyaqət, saf niyyət və xeyirxah ürək — Uca Tanrının sözsüz eşitdiyi ali dualardır.

Uca Allah Sizi və xalqımızı qorusun!".

## Prezident görüşdə iştirak etmədi

### Administrasiya səbəblərini açıqlayıb

Prezident İlham Əliyevin Ali Avrasiya İqtisadi Şurasının iclasında və MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etməməsinin səbəbləri açıqlanıb.

Prezident Administrasiyasından bildirilib ki, Azərbaycan Avrasiya İqtisadi İttifaqına üzv olmadığına görə Prezident İlham Əliyev Ali Avrasiya İqtisadi Şurasının dekabrın 21-də keçirilmiş iclasında iştirak etməyib. MDB dövlət başçılarının Sankt-Peterburq şəhərində keçirilən qeyri-rəsmi Zirvə görüşündə isə iş qrafikinin sıxlığına görə iştirak edə bilməyib.

## Azərbaycanın sülh təşəbbüsü

### Ermənistanın rəhbəri təşəkkür edir

Ermənistanın Baş naziri Nikol Paşinyan Sankt-Peterburqda keçirilən Ali Avrasiya İqtisadi Şurasının iclasında Prezident İlham Əliyevə yüklərin Azərbaycan ərazisindən Ermənistan istiqamətində tranzitinin açılması və ikitərəfli ticarətin başlanması üçün şəraitin yaradılması ilə bağlı qəbul edilən qərara görə təşəkkürünü bildirib. O, bunu regionda sülhün və sabitliyin bərqərar olunması çərçivəsində əldə edilmiş ilk və ən mühüm nailiyyətlərdən biri adlandırıb.


Gənclərin sırasından seçim edilib.......2
Bayramda keşik çəkərkən...................3
Polis Akademiyası: təhsilə təşviq.......3
Adadakı "Tilov"...................................4

# Respublika Xəbərləri

### Amnistiya aktı icra olunur

Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən amnistiya aktı icra olunur. Sənədə görə, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzaların çəkilməmiş hissəsi azaldılacaq. Amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir.

### Salınacaq şəhərlərin planı hazırdır

Azad olunan ərazilərdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanıb və quruculuq işlərinə başlanılıb. Bu barədə Prezident İlham Əliyevin 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Sərəncamında deyilir.

### Qaz ixracı üçün danışıqlar gedir

Abşeron yatağından qazın 2029-cu ildən başlayaraq Türkiyəyə ixracına başlanılması ilə bağlı danışıqlar aparılır. Baş nazir Əli Əsədov Azərbaycan-Türkiyə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasında çıxışı zamanı belə deyib. Yataqda qaz həcminin 350 milyard kubmetr olduğu bildirilir.

### Karantin rejimi uzadılıb

Xüsusi karantin rejiminin müddəti uzadılıb. Nazirlər Kabinetinin qərarına əsasən koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə karantin rejiminin müddəti 2026-cı il 1 aprel saat 06:00-dək uzadılıb.

### Dörd dəfədən çox iqtisadi böyümə

Son 22 ildə Azərbaycanın icmal büdcəsinin gəlirləri 15 dəfə, xərcləri isə 18 dəfə artıb. Bu müddətdə dövlət büdcəsinin gəlirləri 30 dəfə artıb. Azərbaycan üçün kifayət qədər vacib olan strateji valyuta ehtiyatları isə bu dövrdə iki milyard dollardan 80 milyard dollara çatıb.

### Özünüməşğulluq təmin edilir

Bu ilin yanvar-noyabr aylarında Azərbaycanda özünüməşğulluq proqramına 16,5 min nəfər cəlb olunub. Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev deyib ki, 8,7 min nəfər kənd təsərrüfatı üzrə, 7,8 min nəfər isə istehsal və xidmət üzrə proqrama cəlb edilib.

### Onlara ödənişsiz yardım ediləcək

Mina partlayışından zərərçəkənlər ödənişsiz psixoloji yardım ala biləcəklər. Bununla bağlı "Psixoloji yardım haqqında" qanuna təklif edilən dəyişikliklərdə qeyd olunub. Layihəyə əsasən ödənişsiz psixoloji yardım almaq hüququ olan şəxslərin siyahısına "Minatəmizləmə fəaliyyəti haqqında" qanuna uyğun olaraq zərərçəkmişlər də əlavə edilir.

### Yeni köç karvanı

Dekabrın 22-də növbəti köç karvanı Xocalı rayonunun Badara, Daşbulaq, Ağdərənin Kolatağ, Vəngli və Həsənriz kəndlərinə çatıb. Badara kəndinə 66 nəfər (15 ailə), Daşbulaq kəndinə 11 nəfər (4 ailə), Ağdərənin Həsənriz kəndinə 54 nəfər (10 ailə), Vəngli kəndinə 14 nəfər (6 ailə), Kolatağ kəndinə isə 31 nəfər (7 ailə) qayıdıb.

### Sosial yardım hesablara köçürüləcək

Naxçıvanda 2900 ailəyə birdəfəlik maddi yardım göstəriləcək. Prezidentin müvafiq Sərəncamı muxtar respublika üzrə hazırda ünvanlı sosial yardımla təmin olunan ailələrin təqribən 12 min 840 üzvünü əhatə edəcək. Birdəfəlik maddi yardım ünvanlı sosial yardım alan ailələrin hesablarına köçürüləcək.

### Peyvənd olunun

Hazırda əhali arasında ən çox kəskin respirator virus infeksiyalarına rast gəlinir. Səhiyyə Nazirliyi vətəndaşları bununla əlaqədar mövsümi qripə qarşı peyvənd olunmağa çağırır. Vaksinasiya tam ödənişsizdir, yaşayış və ya iş yeri üzrə əhaliyə ambulator-poliklinik xidmət göstərən dövlət tibb müəssisələrində aparılır.

### Qarabağda yeni qaz xətləri çəkilib

Hazırda Xankəndi şəhərində mövcud qaz kəmərlərindən istifadə olunur. Ötən və bu il ərzində Ağdərə xidmət sahəsi üzrə ümumilikdə 80 min poqon metr, Xocalı xidmət sahəsində 68 min poqon metr, Xocavənd xidmət sahəsində isə 75 min poqon metrə yaxın daşıyıcı və paylayıcı qaz xətləri çəkilib.

# Gənclərin sırasından seçim edilib

## Daxili işlər naziri gənclərə tapşırıq və tövsiyələrini verib

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov dekabrın 22-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**





Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 120 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 13 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

Qeyd edək ki, Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il ərzində respublikanın şəhər və rayonlarında ümumilikdə 21 sıra baxışı keçirilib.

Xidmətə qəbul üçün Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət edərək sıra baxışlarında iştirak etmiş gənclərdən 4392 nəfər seçim turunun növbəti mərhələlərinə buraxılıb ki, onlardan da 435 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

# Narkotiklərlə birgə mübarizə

## Rəqəmlər qətiyyətli mübarizəni ifadə edir

Bu ilin yanvar-noyabr ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.

Əvvəlcədən onu qeyd edək ki, təhlilə əsasən bu mübarizədə Daxili İşlər Nazirliyinin yeri xüsusi ilə diqqət çəkir. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin böyük əksəriyyəti məhz Daxili İşlər Nazirliyinin təşəbbüsü, koordinasiyası və birbaşa icrası ilə reallaşdırılır. Nazirliyin aidiyyəti qurumlarla sıx qarşılıqlı fəaliyyəti, beynəlxalq əməkdaşlıq mexanizmlərindən səmərəli istifadə olunması, eləcə də müasir texniki imkanların tətbiqi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə real nəticələrin əldə edilməsinə şərait yaradır.

İşçi Qrupunun da məlumatında göründüyü kimi, Daxili İşlər Nazirliyi bu sahədə yalnız aşkar etmə və zərərsizləşdirmə tədbirləri ilə kifayətlənmir. Narkomanlığın qarşısının alınması, risk qrupları ilə profilaktik işin aparılması və cəmiyyətin məlumatlandırılması istiqamətində də sistemli fəaliyyət göstərir. Bu yanaşma narkotik təhlükəsinə qarşı mübarizənin kompleks xarakter daşıdığını və polisin qətiyyətli mövqeyini aydın şəkildə ortaya qoyur.

Statistikaya gəlincə, qeyd olunur ki, hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 7 min 441 cinayət faktı aşkarlanıb.

Daxili İşlər Nazirliyinin təşkilatçılığı və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 1201,5 hektar sahədən yaş kütləsi 304 ton 762 kq olan 2 milyon 600 min 707 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Qanunsuz dövriyyədən 8 ton 334 kiloqram 712,932 qram narkotik vasitələr və psixotrop maddələr çıxarılıb. Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 5 min 117 nəfər cəlb edilib.

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 87 min 765 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 5 min 179 nəfərdən 2 min 719 nəfərinin istifadəçi olması müəyyən edilib və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

# İctimai etimad meyardır

## Polisə ünvanlanan təşəkkür məktubları bunun bariz göstəricisidir

Daxili İşlər Nazirliyinin rəsmi sosial şəbəkə səhifələrinə daxil olan vətəndaş müraciətləri sırasında polis əməkdaşlarının fəaliyyətinə dair təşəkkür məktublarının sayı artır. Bu, təsadüfi deyil. Polisə münasibət, ictimai etimadın yüksəlməsi polis əməkdaşlarının vətəndaş məmnunluğunu əsas fəaliyyət prinsipi kimi müəyyən etmələrindən qaynaqlanır.

### Minnətdarlıq mesajları ictimai rəyin güzgüsüdür

Vətəndaşlar tərəfindən ünvanlanan təşəkkür mesajlarında, əsasən, müraciətlərə operativ və obyektiv baxılması, problemlərin qısa müddətdə müsbət həll olunması, dəymiş maddi ziyanın ödətdirilməsi, yol-nəqliyyat hadisələrinin ədalətli araşdırılması, eləcə də polis əməkdaşlarının diqqətli, humanist və məsuliyyətli yanaşması xüsusi vurğulanır. Bu məqamlar göstərir ki, polis–vətəndaş münasibətləri formal çərçivədən çıxaraq qarşılıqlı etimad müstəvisinə keçib.

Sosial şəbəkələr üzərindən ünvanlanan bu təşəkkürlər bir növ cəmiyyətin nəbzini ölçən indikator rolunu oynayır. Çünki vətəndaş adətən narazı qaldığı hallarda daha tez reaksiya verir. Razılıq və məmnunluq isə yalnız real nəticə, ədalətli münasibət və peşəkar yanaşma olduqda ifadə olunur. Bu baxımdan polis əməkdaşlarına ünvanlanan minnətdarlıq mesajları ictimai rəyin müsbət istiqamətdə formalaşdığını göstərən bariz sübutdur.

**Daxili İşlər Nazirliyinin fəaliyyət strategiyasında vətəndaş məmnunluğunun təmin edilməsi, operativlik və şəffaflıq əsas prioritetlər sırasında yer alır. Sosial şəbəkələr üzərindən daxil olan təşəkkür məktubları bu strategiyanın real nəticələr verdiyini təsdiqləyir.**

### Güclü etimad mühiti formalaşıb

Müraciətlərdə qeyd olunan faktlar onu deməyə əsas verir ki, polis orqanlarında vətəndaş məmnunluğunun təmin edilməsi, şəffaflıq və operativlik prioritet istiqamət kimi müəyyənləşdirilib. Hər bir müraciətə fərdi yanaşma, obyektiv araşdırma və nəticəyə yönəlmiş tədbirlər daxili işlər orqanlarına inamı daha da möhkəmləndirir.

Polis hər nə qədər gün ərzində hüquq pozuntularına yol verən vətəndaşlar haqqında inzibati tədbirlər görsə də, məsələn, hər gün yol hərəkət qaydalarına əməl etməyən yüzlərlə sürücü haqqında hüquqi tədbirlərin görülməsi ilə "narazılar" ortaya çıxsa da, polisin vətəndaşın güvən yeri kimi qəbul edilməsi bu məktublarda açıq şəkildə ifadə olunur. Bu da həyata keçirilən tədbirlərin, kadrların peşəkarlığının artırılması və xidmət səviyyəsinin yüksəldilməsinin real nəticələr verdiyini göstərir.

Polisə ünvanlanan təşəkkür məktubları ayrı-ayrı hadisələrə diqqət çəkməklə həm ortaya fakt qoyur, həm də bütövlükdə cəmiyyətin polis orqanlarına münasibətini əks etdirir. Buna görə bu məktublar bizim üçün ictimai etimadın, vətəndaş məmnunluğunun və polis–cəmiyyət münasibətlərinin möhkəmləndiyini göstərən mühüm ictimai rəy göstəricisi kimi xüsusi əhəmiyyət daşıyır.

Müasir informasiya cəmiyyətində dövlət qurumları ilə vətəndaş arasında əlaqələrin keyfiyyəti yalnız hüquqi mexanizmlərlə deyil, həm də açıq kommunikasiya mühiti ilə ölçülür. Sosial şəbəkələr bu baxımdan klassik müraciət formalarını tamamlayan, ictimai nəzarət və rəy mübadiləsini sürətləndirən mühüm platformaya çevrilib. Polis fəaliyyətinə dair təşəkkür məktublarının məhz bu müstəvidə paylaşılması göstərir ki, vətəndaş artıq öz məmnunluğunu gizli saxlamır, onu ictimai şəkildə ifadə etməyə ehtiyac duyur.

Bu cür açıq minnətdarlıq nümunələri,eyni zamanda, polis əməkdaşları üçün mühüm motivasiya mənbəyidir. Görülən işin cəmiyyət tərəfindən dəyərləndirilməsi xidmət keyfiyyətinin daha da yüksəldilməsinə, məsuliyyət hissinin gücləndirilməsinə və peşəkar yanaşmanın davamlı olmasına stimul yaradır.

*R.Baxşəlioğlu*

# Bayramda keşik çəkərkən...

## Vətəndaşa xidmət Vətənə xidmətdir

Bayram günləri yaxınlaşır. İndi-dən ölkənin hər yeri bayram ab-havasına bürünüb. Həmin günlərdə hər evdə ailələr bayram süfrəsi arxasında toplaşacaq, birgə şadlanıb istirahət günlərini səfərlərdə keçirməyi planlaşdıracaqlar.

Ancaq bəzi məslək sahibləri var ki, xidməti borcu bayramları geniş ailə tərkibi ilə keçirməkdən üstün tuturlar. Yəqin bununla hamı razılaşar ki, belə peşə sahiblərinin ilk sırasında polislər gəlir. Polis əməkdaşları yenə gücləndirilmiş iş rejimində bayramın keşiyini çəkəcəklər.

İstirahət günlərində yol hərəkətinin sıxlığı, küçələrdə insanların kütləviliyi, tədbirlərin keçirilməsi, ictimai məkanlarda toplaşmalar, gecə həyatının canlanması polisin xidməti yükünü bir qədər də artırır. Asayişin təmin edilməsi həmin günlərdə daha artıq həssaslıq tələb edir. Çünki təhlükəsizlik bayram seçmir, asayiş təqvim tanımır, qanunlar yalnız iş günləri pozulmur.

Bəlkə təhlükəsizlik, sabitlik, asayiş kimi anlayışlar kimin üçünsə




adi görünə bilər. Axı bəzən insan sakit məhlənin, təhlükəsiz küçənin, əmin-aman şəhərin dəyərini onu itirəndə anlayır. Bütün bunların arxasında gecəsini-gündüzünə qatıb çalışan polis əməkdaşının gərgin əməyinin, məsuliyyətinin, fədakarlığının dayandığını isə ən yaxşı bu peşənin sahibləri və onların ailə üzvləri bilir.

Polis ailəsi yaxşı anlayır ki, başqaları istirahət edərkən onun atası, anası, qardaşı, bacısı iş başındadır. O, övladının sevindiyi anı ən yaxşı halda telefon kamerasından bir neçə dəqiqəlik izləyə biləcək, gecəsini gözünü qırpmadan post növbəsində keçirəcək. Bəli, bu, asayişin, təhlükəsizliyin, qanunun keşikçisinin gerçək obrazıdır.

Buna polisin xidməti borcu deyib keçmək olmaz. Hər gününü cinayətkarlıqla mübarizəyə həsr etmək, vətəndaşın təhlükəsizliyini və ölkənin sabitliyini təmin etmək yalnız xidməti borcla formalaşmır. Polisin içində Vətənə, dövlətə, xalqa sevgi var, andına sədaqət ruhu var.

Polis əməkdaşı üçün təhlükəsizlik duyğusu bayram süfrəsinin səssiz qonağıdır. İnsanların istirahəti, şəhərlərin nizamı, yolların təhlükəsizliyi, küçələrin sakitliyi onun zəhməti hesabına təmin olunur. Ona görə həmin günlərdə polisin xidmətdə olması sadəcə vəzifədən irəli gəlmir, həm də vətəndaşa verilən sözdür, içilən anddır. Vətəndaşlar bu bayramı da tam təhlükəsizlik içində keçirəcəklərini bilirlər. Əmindirlər ki, onların keşiyində təhlükələrə qarşı sipər olanlar dayanıb.

# Bayramı təhlükəsiz keçirin

## Pirotexniki vasitələrlə bağlı vətəndaşlara müraciət edilib



Müraciətdə bildirilib ki, bayram günləri ərəfəsində yaşayış yerlərində, xüsusilə də çoxmənzilli binaların həyətində pirotexniki vasitələrdən istifadə vətəndaşların haqlı narazılığına səbəb olur. Bu məmulatlar əsasən yetkinlik yaşına çatmayan və azyaşlılar tərəfindən istifadə edilir, əksər hallarda isə bədbəxt hadisələrə səbəb olur.

Pirotexniki, eləcə də yüksək səs-yayıcı qabiliyyətə malik partlayıcı və tezalışan məmulatlar mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar siyahısına daxil edilib və qanunla satışı qadağandır. Aşkar olunduğu təqdirdə dərhal satışdan çıxarılır və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülür.

Bir daha vətəndaşların diqqətinə çatdırılır ki, təhlükəsizlik standartlarına cavab verməyən bu kimi vasitələr insan sağlamlığına mənfi təsir göstərməklə yanaşı, tez alışan maddə olduqları üçün ətraf mühitə də ciddi ziyan vura bilər. Ona görə də hər kəs məsuliyyətli davranışı ilə örnək olmağa çağırılır.

# Polis Akademiyası: təhsilə təşviq

## Gələcəyin kursantları ilə görüşlər keçirilib

Daxili İşlər Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Ağdaş, Ağsu, Göyçay, eləcə də Saatlı və Ucar rayonlarında yerləşən orta məktəblərin IX–XI sinif şagirdləri ilə görüşlər keçirilib.

Tədbirlərdə iştirakçılara Daxili İşlər Nazirliyinin Polis Akademiyasında və Daxili Qoşunların Hərbi İnstitutunda təhsil imkanları, tədris prosesləri və daxili işlər orqanlarında xidmətin üstünlükləri haqqında ətraflı məlumat verilib. Akademiyada kursantların maddi, sosial



təminatları üçün hər cür şəraitin yaradıldığı bildirilib, polisin gündəlik fəaliyyəti şagirdlərin diqqətinə çatdırılıb.

Polis Akademiyasında yaradılan şəraitin, kitabxanaların, laboratoriyaların kursantların yüksək ali təhsil almalarına real şərait yaradıldığını göstərən videoçarxlar nümayiş etdirilib, məktəblilərə məlumatlandırıcı bukletlər təqdim olunub.

Görüşün sonunda məktəbliləri və valideynləri maraqlandıran suallar cavablandırılıb.

# Sağlam gələcək naminə...

## Paytaxtda polis maarifləndirici tədbirləri davam etdirir

Polis ötən həftə paytaxtın Xətai, Nərimanov və Qaradağ rayonlarında yerləşən təhsil müəssisələrində maarifləndirici tədbirlər keçirib.



Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin təşkilatçılığı ilə Xətai rayonu ərazisində yerləşən 138 və Nərimanov rayonu ərazisində yerləşən 200 saylı tam orta məktəbdə “Narkomaniya və erkən nikaha yox deyək!” mövzusunda maarifləndirmə tədbirləri keçirilib.

Qaradağ Rayon Polis İdarəsinin əməkdaşları isə eyni mövzuda rayonun 127 və 303 saylı tam orta məktəblərinin şagirdlərilə görüşüblər.

Tədbirlərdə polis əməkdaşları çıxış edərək şagirdlərə narkomaniyanın fiziki, psixoloji və ictimai təhlükələri, bu istiqamətdə hüquq-mühafizə orqanları tərəfindən aparılan qətiyyətli mübarizə tədbirləri, həmçinin erkən nikahın təhsildən uzaqlaşma və sosial fəsadlara səbəb olması barədə geniş məlumat veriblər.

Sonda şagirdlərə sağlam təməlləri olan gələcək qurmaları, zərərli vərdişlərdən uzaq olmaları tövsiyə edilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Bu ilin kiber mənzərəsi

## Kiberpolis kiber cəbhədədir

Kiberməkan bir çox internet istifadəçisini maliyyə məsələləri ilə bağlı ağır sınaqlara çəkir. Texnologiya həyatın hər sahəsinə sirayət etdikcə kiberdələduzlar da internetdə “zəif adamlar” axtarıb tapmağa çalışırlar. Bu isə onu göstərir ki, internet yeri gələndə təhlükə mənbəyinə də çevrilə bilir.

Azərbaycanda smartfon istifadəçiləri, onlayn ödənişlər və rəqəmsal xidmətlər günü-gündən artır. Təbii ki, bu, çox yaxşı haldır. Ancaq kibercinayətkarlar da geosiyasi sərhədləri çoxdan aşaraq bizə çatıb. Hətta bu təhdidlər artıq daha peşəkar xarakter alıb. Kiberpolisin araşdırdığı dələduzluq üsullarına yeni metodlarla törədilən kibercinayətlərin əlavə olunması bunu təsdiq edir.

### Ənənəvi risklər hələ də qalır

Bu il ən çox rast gələnən kiberdələduzluq faktları yenə fişinq hücumları idi. Telefonu açarkən ekranda peyda olan şübhəli məktub, sönmüş ekranı işıqlandıran SMS, sosial şəbəkələrdə paylaşılan saxta linklər artıq, demək olar ki, hər birimizə tanış mənzərədir. Bəzən insanlar bank adı ilə göndərilən belə mesajlara inanaraq şəxsi məlumatlarını paylaşır, bir çoxu da bunu iş-işdən keçəndən sonra anlayır. Bank kartı oğurluqları, internet bankçılığa icazəsiz girişlər, “bank əməkdaşıyam, məlumatları təsdiqləməlisiniz” deyərək edilən telefon zəngləri bu il də onlarla insanı zərərçəkənə çe-




virdi.

Pandemiyadan sonra populyarlığı artan onlayn alış-verişlər də alıcılar üçün risklər doğurur. Kimi ödəniş edir, amma məhsul gəlib çıxmır. Saxta onlayn mağazalar, yoxa çıxan satıcılar və aldadılan istifadəçilərə yenə rast gəlinir. Xəstə uşaqlara ianə adı altında internet üzərindən edilən dələduzluqlar, sosial şəbəkələrdə hansısa bir şəxsin hesabını izləmək kimi şirnikləndirici “xidmətlər” kibercinayətlərin siyahısını uzadır.

### “Ağıllanmış” təhlükə

Bu il diqqət çəkən ən mühüm dəyişiklik isə kiberdələduzluğun süni intellektlə birləşməsindən doğan təhlükələr oldu. Sanki texnologiya öz kölgəsini yaratdı. Artıq dələduzların kimliyi gizlətmək üçün saxta səs və ya video yaratmasına imkan verən süni intellekt alətləri mövcuddur. Bir neçə saniyəlik səs nümunəsi ilə şəxsin səsləndməsini təqlid etmək olur. Nəticədə ata övladından, övlad anasından borc istəyən səs tonunu eşidir və duyduğu hər bir səs doğruluq təəssüratı yaradır. Dipfeyk adlanan bu texnologiya ilə həqiqət saxtanın altında gizlənir, gizlədilir.

Bu fon qarşısında kiberdələduzluq artıq yalnız maddi yox, psixoloji zərər də verir. İnformasiya bolluğu içində yanlış məlumatlar daha tez yayılır, güvən boşluğu yaranır. Belə bir zamanda polisin və digər dövlət qurumlarının kibertəhlükəsizliklə bağlı keçirdiyi maarifləndirici tədbirlərə önəm verməklə riskləri tanımaq və bununla da kibermәkanda təhlükəsizlik duyğusunu qorumaq mümkündür.

### Şübhələn, inanma, yoxla

Polis bu il kibertəhlükələrə qarşı mübarizəni daha geniş miqyasda davam etdirdi. Maarifləndirici layihələr, xəbərdarlıq çarxları, sosial şəbəkələrdə paylaşılan məlumatlar internet istifadəçilərini üç əsas sadə qaydaya əməl etməyə çağırır: “Şübhələn, inanma, yoxla.”

Təhsil müəssisələrində keçirilən görüşlər, təşkil olunan təlimlər, ictimai çağırışlar vətəndaşları rəqəmsal dünyadakı risklərlə tanış etməyə və beləcə zərərçəkənə çevrilməmələrini təmin etməyə yönəlib.

Eyni zamanda, onlayn təhlükə xəbərdarlıqlarının dərhal araşdırılması və kiberpolisin peşəkarlığı sayəsində bir sıra kiberdələduzluq şəbəkələri də ifşa edilib.

# Baş tutmayan narkotik satışı

## Polis əməkdaşları şübhəli şəxsləri saxlayıblar

DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədi ilə əməliyyatlar davam etdirilir. Paytaxt və bölgələrdə baş tutan növbəti tədbirlər zamanı əvvəllər məhkum olunan Səddam Əsədov, Emin Balakişiyev və Emin Əliyev saxlanılıblar. Onlardan 47 kiloqram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana və psixotrop maddə metamfetamin aşkarlanıb.

Saxlanılanların şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşları ilə cinayət əlaqəsinə girərək narkotik vasitələri əldə etdikləri və satış məqsədi ilə əvvəlcədən təyin edilən nöqtələrə yerləşdirməyi planlaşdırdıqları məlum olub.

Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı növbəti əməliyyat keçirilib. Tədbir zamanı 36 yaşlı Emin Mirzəyev narkokuryerlikdə şübhəli bilindiyi üçün saxlanılıb. Onun üzərindən və Qaradağ rayonu Qızıldaş qəsəbəsindəki evindən 11 kiloqrama yaxın narkotik vasitə olan marixuana, psixotrop maddə metamfetamin və 2 ədəd elektron tərəzi aşkarlanıb.

Saxlanılan şəxs ifadəsində narkotik vasitələri sosial şəbəkədə tanış olduğu şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı vasitəsilə əldə etdiyini və paytaxt ərazisində müxtəlif ünvanlara çatdırmağı planlaşdırdığını bildirib.

Qeyd edək ki, cari ilin əvvəlindən Nəsimi RPİ-nin əməkdaşları tərəfindən 171 kiloqram müxtəlif növ narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

Faktlarla bağlı cinayət işi başlanılıb.

# Magistratura üzrə qəbul elan edilir

## Polis Akademiyasında əməkdaşlar əlavə təhsilə dəvət olunur

DİN-in Polis Akademiyası 2026/2027-ci tədris ili üçün dövlət hesabına 2 illik əyani təhsil əsasında "Hüquqşünaslıq" ixtisasının "Cinayət hüququ və kriminologiya" və "Cinayət prosesi, kriminalistika, məhkəmə ekspertizası və əməliyyat-axtarış fəaliyyəti" ixtisaslaşmaları üzrə magistraturaya qəbul elan edir.

Əməkdaşların sənədlərinin qəbulu və tədris işlərinin tərtibatı onların xidmət yeri üzrə həyata keçirilir. Akademiyanın magistraturasına qəbul olunmaq istəyən əməkdaşlar 2026-cı ilin fevral ayının 14-dək əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət etməlidir.

Raporta aşağıdakı sənədlər əlavə edilir:

- şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- ali təhsil haqqında sənəd və ona əlavənin notarial qaydada təsdiq edilmiş surəti;
- xarici ölkələrdə ali təhsil almış şəxslərə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən verilən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını təsdiq edən sənədləri (notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsi).

Əməkdaşın xidmət keçdiyi orqanda onun raportu əsasında tədris işi tərtib edilir və Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərilir.

**Müsabiqə Polis Akademiyasına informasiya-kommunikasiya texnologiyası vasitəsilə test üsulu ilə keçirilən imtahanlardan ibarətdir.**

Daxili işlər orqanları əməkdaşlarının Akademiyaya qəbulu müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak ödənişsizdir və Polis Akademiyasına informasiya-kommunikasiya texnologiyaları vasitəsilə test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

Magistraturaya qəbul imtahanı üzrə iki cəhdin keçirilməsi nəzərdə tutulur. Qeydiyyatdan keçmiş namizədlər öz istəklərinə uyğun olaraq həmin imtahanların birində və ya hər ikisində iştirak edə bilərlər.

Magistratura pilləsinə qəbul zamanı ixtisas müsabiqəsində iştirak üçün qəbul üzrə verilən birinci və ikinci cəhd imtahanları arasında ən yüksək nəticə seçilir.

Magistraturaya qəbul üzrə birinci cəhd imtahanının 2026-cı il fevral ayında, ikinci cəhd imtahanının may ayında keçirilməsi nəzərdə tutulur.

İmtahanda bakalavrlara məntiqi təfəkkürün yoxlanılması üzrə 50, informatika üzrə isə 25 test tapşırığı təqdim olunacaq. Xarici dil üzrə test blokunda isə 20 test tapşırığı təqdim ediləcək, həmçinin bakalavrlar xarici dil üzrə yazı işi (esse) yazacaqlar. Test tapşırıqlarını cavablandırmağa 3 saat, esseni yerinə yetirmək üçün isə 30 dəqiqə vaxt verilir.

İmtahanın nəticələri üzrə qəbul yerlərinin sayına müvafiq olaraq minimal qəbul balından az olmamaq şərtilə ümumilikdə ən yüksək bal toplayan 10 namizəd müsabiqədən müvəffəqiyyətlə keçmiş hesab olunur və Akademiyanın magistratura pilləsinə qəbul edilirlər.

Daha ətraflı məlumatı DİN-in Baş Kadrlar İdarəsinin (012) 590-97-76, 17-76 (daxili), DİN-in Polis Akademiyasının 8880 qaynar xətti, (012) 454-34-57, 554-99-84 nömrəli telefonları vasitəsi ilə ala bilərsiniz.

# Adadakı "Tilov"

## İTV-də yayımlanan serialda polis obrazı necə görünür?

Azərbaycan polisinin tarixi gerçək qəhrəmanlar, prototiplər və təsirli hadisələrlə zəngindir. Bu irs maraqlı ekran əsərləri üçün tükənməz material deməkdir.

Bu il Azərbaycan İctimai Televiziyasında yayımlanan "Tilov" adlı 10 bölümlük serial kriminal dramaturgiya və polis obrazının semantik yükünü tamaşaçıya ötürməsi ilə bu baxımdan diqqət çəkdi.

"Artfilmbaku" tərəfindən istehsal olunan "Tilov" kriminal dram janrına əsaslanır və süjeti qətl hadisələri ətrafında inkişaf etdirir. Serialın rejissoru keçmiş polis əməkdaşı Emil Quliyevdir.

Serialın süjet xətti Çilov adasında baş verən sirli ölüm hadisəsi üzərində qurulub. Serialın adı baş hərfinin dəyişməsi ilə "Çilov"dan "Tilov"a çevrilmə kimi görünsə də, əslində, adanın özü, süjetin quruluşu, talelərin bir-birinə dolaşması ilə "Tilov" böyük bir metaforadır. Burada hər kəs tilova düşən tərəfdir. Serialdakı insanlar müəyyən mənada tələdədir. Personajdan kimlərsə günahın içindədir, polis hüquq və mənəvi seçim arasına düşür, tamaşaçı isə hadisələrin içində emosional olaraq tutulub qalır.




Hadisələr izsiz qətllə başlayır və polis araşdırmasının dərinləşməsi ilə yeni istiqamətlər qazanır.

Kəmalə Piriyeva (serialın əsas qəhrəmanı Nigar), Elşən Əskərov və Ülvi Həşim kimi istedadlı aktyorların oyunu süjetin müxtəlif rakurslardan açılmasına imkan verir. Ümumiyyətlə, aktyor heyəti obrazların psixoloji çalarını gücləndirə və sosial münasibətlərin çoxqatlı xarakterini nümayiş etdirə bilib.

Serialda bizim üçün ən mühüm elementlərdən biri, təbii ki, polis obrazıdır. Aktyor Amid Qasımovun yaratdığı polis kapitanı Nazim qanun keşikçisindən başqa, həm də etik, sosial və psixoloji yük daşıyan şəxsdir. Polis istintaqın mərkəzində dayanaraq baş verən hadisələri ardıcıllıqla analiz edir, ipucuları toplamaqla yanaşı, insan münasibətlərinin qaranlıq tərəflərinə də işıq salır.

"Tilov"da polis əməkdaşı sadəcə qəhrəman kimi romantizə də edilmir. O, çətin vəziyyətlər arasında seçim etmək məcburiyyətində qalan, haqsızlıqla və qeyri-müəyyənliklə üz-üzə dayanan insandır.

"Tilov" tamaşaçıya polisin yalnız cinayəti açmaqla kifayətlənmədiyini, eyni zamanda, öz işini cəmiyyətlə əlaqələndirərək ədalət axtarışının nə qədər mürəkkəb olduğunu göstərir.

Qanunun mənəvi tərəfi ön plana çıxır. Tamaşaçı hər bir araşdırmanın arxasında insan talelərini, travmalar və vicdan dilemmalarının dayandığını hiss edir. "Tilov" bu baxımdan polis işini yalnız faktlar və prosedurlar məcmusu kimi təqdim etmir, emosional yükü olan ağır bir prosesin dramatik obrazını yaradır. Ancaq Nigarın "intiqam cinayətlərində" iştirakı və sonda intihar etməsinin arzuolunmaz ictimai mesaj ola biləcəyini də narahatlıq içində qeyd etməliyik.

Bütövlükdə isə süjet dinamizmi, psixoloji gərginlik və polis obrazının xüsusi dramaturji çəkisi əsəri adi detektiv formatından çıxarıb və onu insan, cəmiyyət və ədalət üçbucağında anlaşılan vahid hekayəyə çevirib.

# Söz də polisin silahıdır

## Ünsiyyət bacarığı peşəkarlığı əks etdirir

**"Mədəni ünsiyyət gücün ən sakit, amma ən təsirli formasıdır"**

Polis əməkdaşının hər bir sözü, davranışı və münasibəti cəmiyyətdə hüquq-mühafizə orqanları haqqında təsəvvür formalaşdırır. Buna görə ünsiyyət mədəniyyətinə peşəkar fəaliyyətin ayrılmaz tərkib hissəsi kimi baxılır.

İlk təmas polis–vətəndaş münasibətlərinin gələcək istiqamətini müəyyən edir. Polis əməkdaşının duruşu, baxışı, səs tonu və müraciət forması vətəndaşda ya inam, ya da narahatlıq yaradır.

Sakit, özünəinamlı və nəzakətli davranış vətəndaşda təhlükəsizlik hissini gücləndirir. Əksinə, əsəbi və ya laqeyd münasibət qanuni tələbin belə narazılıqla qarşılanmasına səbəb ola bilər. Unutmaq olmaz ki, polis əməkdaşı dövlətin siması kimi qəbul edilir.

Effektiv ünsiyyət yalnız danışmaq bacarığı deyil, həm də diqqətlə dinləmək mədəniyyətidir. Vətəndaşın fikrini yarımçıq kəsmədən dinləmək onun narahatlığını azaldır və gərginliyi aradan qaldırır.

Dinləmə bacarığı polis əməkdaşına hadisəni daha dərindən anlamağa, obyektiv qərar verməyə və vəziyyəti düzgün idarə etməyə imkan yaradır. Vətəndaş dinlənildiyini hiss etdikdə, polisə qarşı etimadı və əməkdaşlıq istəyi artır.

Polis əməkdaşları tez-tez aqressiv, həyəcanlı və emosional şəxslərlə ünsiyyət qurmalı olurlar. Belə hallarda peşəkar ünsiyyət bacarığı həlledici rol oynayır.

Aqressiyaya aqressiya ilə cavab vermək qarşıdurmanı dərinləşdirir. Təmkinli və ölçülü danışıq isə vəziyyəti nəzarət altına almağa kömək edir. Polis əməkdaşı bu cür hallarda həm hüquqi səlahiyyətlərini, həm də psixoloji yanaşmanı balanslı şəkildə tətbiq etməlidir.

Əsas vəzifəsi qanunun aliliyini təmin etmək olan polis bu zaman insani münasibətə də yer ayırmalıdır. Qanunla insani münasibət bir-birinə zidd anlayışlar deyil, əksinə, bir-birini tamamlayan dəyərlərdir. Empatiya göstərmək, vətəndaşın vəziyyətini anlamağa çalışmaq polis əməkdaşının peşəkarlığını daha da artırır. Bu yanaşma qanuni qərarların cəmiyyət tərəfindən daha rahat qəbul edilməsinə şərait yaradır.

Polis əməkdaşının istifadə etdiyi hər bir söz ciddi əhəmiyyət daşıyır. Sadə, aydın və hörmətli ifadələr qarşı tərəfdə müsbət reaksiya yaradır. Sərt və yanlış seçilmiş sözlər isə vəziyyəti daha da mürəkkəbləşdirə bilər.

"Xahiş edirəm", "izah edim", "qanunun tələbi budur" kimi ifadələr ünsiyyətdə yumşaqlıq yaradır və qarşılıqlı anlaşmanı gücləndirir. Ünsiyyət mədəniyyəti insan üçün önəmli peşə alətidir.

# Nəzakətli davranış intizamdır

## Nəzakət hörmətin gündəlik formasıdır, qaydasıdır

Nəzakət gücsüzlüyün deyil, yüksək mədəniyyətin göstəricisidir. Nəzakətli insan qarşısındakını yox, özünü ucaldır. Söz nəzakətlə deyildikdə həqiqət daha asan qəbul olunur. Nəzakət qapıları açar, kobudluq divarlar hörər.

Ən sərt həqiqət belə nəzakətlə deyildikdə incitməz. Nəzakət insanın daxili tərbiyəsinin görünən üzüdür. Hörmət tələb edilmir, nəzakətlə qazanılır. Nəzakətli davranış insanın gücünü deyil, xarakterini göstərir. Nəzakət sükutda da danışa bilən dildir. İnsanın səviyyəsi nəzakətindən tanınar. Nəzakət insanın özünü idarə edə bildiyini göstərən ən səssiz sübutdur. Nəzakət qayda deyil, xarakter məsələsidir.

Nəzakət insanın dilindən əvvəl düşüncəsinin tərbiyəsidir. Nəzakətli insan mübahisədə qalib gəlməyə yox, anlayış yaratmağa çalışar. Sözün gücü tonundadır; tonun gücü isə nəzakətdə. Nəzakət itirildikdə, haqlılıq da təsirini itirir. İnsan nə qədər haqlı olsa da, nəzakətsizdirsə, haqsız görünər.

# Gənc əməkdaşlara tövsiyələr

## Peşəkarlıq ictimai nüfuzu artırır

**Polis peşəsi deyincə ağla ilk olaraq forma geyinmək və qanunun icrasını təmin etmək gəlir. Lakin bu ilkin təəssüratın arxasında böyük peşə keyfiyyəti və ciddi məsuliyyət dayanır. Polis peşəsi, eyni zamanda, yüksək intizam, psixoloji dayanıqlıq, çevik qərarvermə bacarığı və insanlarla düzgün ünsiyyət tələb edən çətin xidmət yoludur.**

Xüsusilə gənc polis əməkdaşları üçün xidmətin ilk illəri həm öyrədici, həm də sınaq mərhələsi hesab olunur. Bu dövrdə qarşılaşılan müxtəlif situasiyalar peşəkar formalaşmada mühüm rol oynayır. Məhz bu səbəbdən təcrübəli əməkdaşların bilik və bacarıqlarının gənc nəslə ötürülməsi, xidmətin incəliklərinin aşılanması və düzgün istiqamətləndirmənin təmin edilməsi böyük əhəmiyyət daşıyır.

Aşağıda təqdim olunan tövsiyələr polis sıralarına yeni qoşulan əməkdaşların peşə yolunda daha inamlı addımlamasına, qarşılaşdıqları çətinliklərin öhdəsindən layiqincə gəlməsinə kömək edə bilər. Bu prinsiplərə əməl etmək fərdi peşəkarlığın yüksəlməsinə və polis xidmətinin nüfuzunun möhkəmlənməsinə, polis–cəmiyyət münasibətlərinin daha sağlam əsaslar üzərində qurulmasına xidmət edər.

**Qanunu dərindən öyrən və düzgün tətbiq et**

Qanunvericiliyi bilmək vacibdir, lakin onu konkret vəziyyətlərdə düzgün tətbiq etmək daha önəmlidir. Hər bir qərar hüquqi əsaslara söykənməlidir.

**Xidmət zamanı soyuqqanlı ol**

Emosional vəziyyətlərdə tələskən qərarlar səhvlərə yol aça bilər. Polis əməkdaşı hər zaman sakitliyini qorumağı bacarmalıdır.

**Vətəndaşla davranışda balansı qoru**

Hörmət və tələbkarlıq bir-birini tamamlamalıdır. Nə həddən artıq sərtlik, nə də həddindən artıq yumşaqlıq peşəkarlıq göstəricisi sayılmır.

**Təhlükəsizlik qaydalarını prioritet et**

Hər bir xidmət tapşırığında ilk növbədə şəxsi və ətrafdakıların təhlükəsizliyi düşünülməlidir.

**Həmkarlarının məsləhətlərinə açıq ol**

Xidmət illəri ərzində qazanılan təcrübə ən dəyərli bilik mənbəyidir. Dinləmək və öyrənmək gənc polis üçün üstünlükdür.

**Forma və davranış polisin imicidir**

Polisin xarici görünüşü və davranışı cəmiyyətin hüquq-mühafizə orqanları haqqında ilk təsəvvürünü formalaşdırır.

**Sosial şəbəkələrlə bağlı qadağalara əməl elə**

Şəxsi paylaşımlar belə polis peşəsinin nüfuzuna təsir göstərə bilər. Etik davranış kodeksi hər zaman birinci planda olmalıdır.

**Fiziki və psixoloji hazırlığını qoru**

Mütəmadi idman və psixoloji özünənəzarət uzunmüddətli xidmət üçün vacibdir.

**Səhvlərdən nəticə çıxar**

Hər bir səhv dərsdir. Vacib olan onu təkrarlamamaqdır.

**Polis peşəsinin missiyasını qəbul et**

Bu peşə sadəcə iş deyil, cəmiyyətə və dövlətə xidmətdir. Polis əməkdaşı öz davranışı, qərarları və məsuliyyəti ilə ictimai etimadı formalaşdırır. Buna görə də polis peşəsini seçən hər bir gənc əməkdaş bilməlidir ki, bu məslək fədakarlıq və dürüstlük tələb edir.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
MƏSUL ŞƏXS:
ELŞAD HACIYEV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik